## Riyaziyyat

1. $ƏBOB(2n;3n)=9$ olarsa, $2n+3$ ifadəsinin qiymətini tapın.
A) 18 B) 21 C) 17
D) 19 E) 25

2. $x^2-8x=0$ tənliyinin böyük kökünü tapın.
A) 6 B) 3 C) 4 D) 8 E) 9

3. $a$ parametrinin hansı qiymətində $f(x)=\sqrt{x+a}$ funksiyasının qrafiki $A(-1;2)$ nöqtəsindən keçər?
A) 4 B) 1 C) 2
D) 5 E) 3

4. İti bucağı 30° , iki tərəfinin uzunluğu 11 və 7 olan paraleloqramın hündürlükləri cəmini tapın.
A) 7 B) 8 C) 9
D) 10 E) 11

5. Hesablayın: $tan\frac{\pi}{4}+cos\frac{\pi}{3}+\sin(-\frac{\pi}{6})$
A) -1 B) $-\sqrt{3}$ C) 2
D) $\sqrt{3}$ E) 1

6. Tərəfi $4\sqrt{3}$ olan bərabərtərəfli üçbucağın sahəsini tapın.
A) $24\sqrt{3}$ B) $16\sqrt{3}$ C) $8\sqrt{3}$
D) $32\sqrt{3}$ E) $12\sqrt{3}$

7. Ədədi silsilədə $a_1=9, a_4=21$ olarsa, silsilə fərqini tapın.
A) 2 B) 3 C) 4
D) 5 E) 6

8. $8^{\frac{2}{3}}+81^{\frac{1}{4}}$ ifadəsinin qiymətini tapın.
A) 12 B) 8 C) 7
D) 5 E) 9

9. İki oxşar üçbucağın uyğun tərəfləri $1:4$ nisbətindədir.Bu üçbucaqların perimetrləri cəmi 45 olarsa, böyük üçbucağın perimetrini tapın.
A) 36 B) 30 C) 35
D) 40 E) 42

10. 80 ədədinin natural bölənlərinin sayını tapın.
A) 15 B) 10 C) 8
D) 20 E) 16

11. $\begin{cases}3x+2y=12\\2x+3y=13\end{cases}$ tənliklər sistemindən $x+y$ cəmini tapın.
A) 7 B) 6 C) 9
D) 5 E) 4

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

12. İki natural ədəddən birincisinin $\frac{1}{6}$ hissəsi ikincinin $\frac{2}{5}$ hissəsinə bərabərdir.Birinci ədədin ikinci ədədə olan nisbətini tapın.

A) $\frac{12}{5}$ B) $\frac{4}{9}$ C) $\frac{9}{10}$
D) $\frac{18}{11}$ E) $\frac{9}{8}$

13. $tan\alpha = \frac{2}{5}$ olarsa, $cot\alpha$-nı tapın.

A) 3 B) 2,5 C) 6
D) 1,5 E) 7

14. $f(x) = kx + b$ funksiyasının qrafiki I, II və III rüblərdən keçərsə $k$ və $b$-nin işarəsini tapın.

A) $k > 0, b < 0$
B) $k > 0, b > 0$
C) $k < 0, b < 0$
D) $k < 0, b > 0$
E) $k < 0, b = 0$

15. Qabarıq yeddibucaqlının diaqonalları sayını tapın.

A) 14 B) 20 C) 21
D) 22 E) 28

16. Kəsri ixtisar edin: $\frac{a^2-6a+5}{a-1}$

A) $a-2$ B) $a-5$ C) $a-4$
D) $a+1$ E) $a+3$

17. $O$ mərkəzli çevrədə $\angle BAC = 50°$ olarsa, $AnC$ qövsünün dərəcə ölçüsünü tapın.




A) 50° B) 60° C) 40°
D) 80° E) 70°

18. Dairənin radiusunu 40% artırdıqda sahəsi neçə dəfə artar?

A) 1,44 B) 1,96 C) 1,4
D) 2,6 E) 4

19. $A \subset B, n(A) : n(B) = 2 : 7$ və $n(A \setminus B) + n(B \setminus A) = 15$ olarsa, $n(A)$-nı tapın.

A) 18 B) 6 C) 9
D) 15 E) 21

20. $A(2; m)$ və $B(5; 0)$ nöqtələri arasındakı məsafə 5 olarsa, $m$-i tapın

A) $\pm 4$ B) $\pm 3$ C) $\pm 2$
D) $\pm 1$ E) 0

21. $A(2; a-2)$ və $B(b+1; -4)$ nöqtələri absis oxuna nəzərən simmetrik olarsa, $a+b$ cəmini tapın.

A) 5 B) 6 C) 9 D) 8 E) 7

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

t.me/BirlikTeam1

22. $y = \frac{x-1}{2}$ funksiyasının tərsini tapın.
    A) $y = 2x + 1$
    B) $y = 0,5x + 1$
    C) $y = -2x - 1$
    D) $y = \frac{x+1}{2}$
    E) $y = \frac{2}{x-1}$

**Açıq tipli test tapşırıqları:**

23. Katetləri 12 sm və 16 sm olan düzbucaqlı üçbucağın hipotenuzuna çəkilmiş medianını tapın.

24. Hesablayın: $\sqrt{4-2\sqrt{3}} \cdot \sqrt{4+2\sqrt{3}}$

25. $|2x - 5| < 7$ bərabərsizliyinin tam həllərininin cəmini tapın.

26. Həndəsi silsilədə $b_5 \cdot b_7 \cdot b_9 = 10$ olarsa, $b_7$-nin tam hissəsini tapın.

27. Ümumi həddi verilmiş ardıcıllıqlar üçün uyğunluğu müəyyən edin.

| | |
|---|---|
| 1. $a_n = 3n - 2$ | a.həndəsi silsilədir |
| 2. $a_n = 5 \cdot 3^n$ | b.ədədi silsilədir |
| 3. $a_n = n^2 + 5$ | c. silsilə deyil |
| | d. 3-cü həddi 7-dir |
| | e.1-ci həddi 15-dir |

**Situasiya**

Həyətyanı sahədə oturacağı dairə formasında olan bir hovuz var.Hovuzun oturacağının çevrəsinin tənliyi $x^2 - 6x + y^2 = 0$ kimidir. Hovuza su vurmaq üçün iki nasos birləşdirilmişdir.

28. Hovuzun oturacağının sahəsini tapın.

29. Birinci nasos hovuzu 8 saata , ikinci nasos isə 6 saata doldurur. Hər iki nasos birlikdə 2 saat işləyərsə hovuzun hansı hissəsi dolar?

30. Hovuza çıxmaq üçün yerlə əmələ gətirdiyi bucağın sinusu 0,8 olan nərdivan birləşdirilmişdir.Hovuzun hündürlüyü 12 m olarsa, nərdivanın uzunluğunu tapın.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

t.me/BirlikTeam1

## Coğrafiya

31. Çay yatağında bərk süxur çıxışları necə adlanır?
A) Şəlalə B) Delta C) Astana
D) Terras E) Mağara

32. Orta enlikdə, dəniz səviyyəsində yerləşən ***A*** məntəqəsində havanın temperaturu +18°C, ***B*** məntəqəsində isə +6°C –dir. ***C*** məntəqəsində atmosfer təzyiqini müəyyən edin.




A) 710 *mm* B) 510 *mm* C) 260 *mm*
D) 610 *mm* E) 360 *mm*

33. Təzyiqli layarası sular necə adlanır?
A) Qrunt suları B) Mineral sular
C) Artezian suları D) Karst suları
E) Səth suları

34. Torpağın şoranlaşmasının qarşısını almaq üçün tətbiq edilən meliorasiya tədbiri:
A) Şumlama
B) Kollektor-drenaj şəbəkəsi
C) Gübrə vermə
D) Meşə zolağının salınması
E) Rekultivasiya

35. Doğru olan sıraları seçin.

| | **Çaylar** | **Əsas qida mənbəyi** | **Aid olduğu hövzə** |
|---|---|---|---|
| **1.** | Astaraçay | yağış | Talış dağları |
| **2.** | Qudyalçay | Qar və buzlaq | Böyük Qafqazın şimal-şərqi |
| **3.** | Arpaçay | yeraltı | Talış dağları |
| **4.** | Araz | yeraltı | Kür |
| **5.** | Pirsaat | Qar və buzlaq | Abşeron-Qobustan |

A) 1,2,3 B) 2,3,4 C) 2,3,5
D) 1,2,4 E) 1,3,5

36. Xəritə-sxemdə rəqəmlərlə verilən iqlim vilayətlərinin müvafiq ardıcıllığını müəyyən edin:




A) 1 – Subekvatorial; 2 – Ekvatorial;
3 – Musson subtropik
B) 1 – Quru tropik; 2 – Ekvatorial;
3 – Subekvatorial
C) 1 – Aralıq dənizi; 2 – Subekvatorial;
3 – Rütubətli tropik
D) 1 – Kontinental subtropik; 2 – Subekvatorial;
3 – Dəniz mülayim
E) 1 – Mülayim-kontinental; 2 – Quru tropik;
3 – Rütubətli subtropik

37. Hansı çayın mənsəbi yarımsəhra və səhra təbii zonasında yerləşir ?
A) Volqa B) Dunay C) Missisipi
D) Xuanxe E) Niger

38. Uyğunluğu müəyyən edin.




1. Atlantik okeanı hövzəsinə aiddir
2. Ən rütubətli materikdə yerləşir
3. Əsasən subekvatorial iqlim qurşağında yerləşir
4. Mənbəyini cavan dağlıq ərazidən götürür
5. Dünyanın ən böyük körfəzinə tökülür

A) I-2,3; II-1; III-4,5 B) I-1,4; II-2,5; III-3
C) I-1,2; II-3,5; III-4 D) I-4; II-3,5; III-1,2
E) I-2,4; II-1,5; III-3

39. Hansı su hövzəsinin sahəsi kəskin azalmışdır ?
A) Xəzər dənizi B) Aral dənizi
C) Balxaş gölü D) Cad gölü
E) Qara dəniz

40. Azərbaycan daxilində ən çox sululuğa malik olan, üzərində Sərsəng və Suqovuşan su anbarları yerləşən çay hansıdır?
A) Ağstafaçay B) Tərtərçay
C) Gəncəçay D) Türyançay
E) Viləşçay

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

t.me/BilikTeam1

41. Hansı sıralarda uyğunluq ***pozulmuşdur*** ?

| | **Gölün adı** | **Yerləşdiyi materik** | **Aid olduğu hövzə** |
|---|---|---|---|
| 1 | Yuxarı | Şimali Amerika | Sakit okean |
| 2 | Xəzər | Avrasiya | Daxili axarsız |
| 3 | Baykal | Avrasiya | Şimal Buzlu |
| 4 | Viktoriya | Şimali Amerika | Atlantik okeanı |
| 5 | Titikaka | Cənubi Amerika | Daxili axarsız |
| 6 | Eri | Avstraliya | Hind okeanı |

A) 3, 4, 5 B) 1, 2, 4 C) 2, 3, 6
D) 1, 2, 5 E) 1, 4, 6

42. Filiz faydalı qazıntı yataqlarının daha çox yayıldığı bölgə və bunun səbəbi hansıdır?
A) Böyük Qafqaz; çökmə süxurların üstünlüyü
B) Kür-Araz ovalığı; neft-qaz ehtiyatlarının çoxluğu
C) Kiçik Qafqaz; maqmatik və metamorfik süxurların geniş yayılması
D) Abşeron yarımadası; dəniz çöküntülərinin olması
E) Ön Qafqaz; tektonik çökmənin baş verməsi

43. Azərbaycanın göllərini mənşəyinə görə uyğunlaşdırın:
1. Tektonik 2. Buzlaq
3. Uçqun (bənd) 4. Axmaz
a. Tufangöl b. Acınohur
c. Sarısu d. Göygöl
A) 1-b, 2-a, 3-d, 4-c B) 1-a, 2-b, 3-c, 4-d
C) 1-c, 2-d, 3-a, 4-b D) 1-d, 2-c, 3-b, 4-a
E) 1-b, 2-d, 3-a, 4-c

44. Kserofit bitkilər harada yayılmışdır?
A) Bataqlıqlarda B) Səhralarda
C) Okeanlarda D) Alp çəmənlərində
E) Tundrada

45. Dünyanın ən uzun şirinsulu gölü necə yaranmışdır?
A) yer qabığının tektonik hərəkəti nəticəsində
B) vulkan kraterlərində yağış və qar sularının yığılması nəticəsində
C) çayın öz yatağını dəyişməsi nəticəsində
D) dağ uçqunu zamanı süxurların çay dərəsinin qarşısını kəsməsi nəticəsində
E) eol prosesləri nəticəsində

46. Geosinklinalın III inkişaf mərhələsində olan dağları müəyyən edin.




A) 1,3,6 B) 2,3,5 C) 2,4,5
D) 1,4,6 E) 1,2,3

47. Doğru ***olmayan*** ifadəni seçin:
A) Körfəzlər dənizlərdən fərqli olaraq okeanla daha sərbəst əlaqəyə malikdir
B) Dünyanın ən böyük yarımadası Şimal Buzlu okeanı suları ilə yuyulur
C) Süveyş bərzəxi iki qitəni birləşdirir
D) Dünyanın ən enli boğazı ən böyük okeanları birləşdirir
E) Vulkanik mənşəli adalar həm divergent, həm də konvergent zonalarda yerləşir

48. 22 iyunda Günəş şüalarının 73,5° bucaqla düşdüyü enliklər arasındakı ən qısa məsafə 1: 22 200 000 miqyaslı xəritədə neçə sm olar?
A) 44,4 B) 40 C) 21,5
D) 16,5 E) 22,2

49. Coğrafi təbəqənin bütövlüyü qanunauyğunluğu nəyi ifadə edir?
A) Komponentlərin qarşılıqlı əlaqəsini
B) Gecə və gündüzün əvəzlənməsini
C) Fəsillərin dəyişməsini
D) Təbii komponentlərin enliklər üzrə dəyişməsini
E) Materiklərin hərəkətini

50. Codyarpaqlı həmişəyaşıl meşə və kolluqlar zonası üçün xarakterik bitki:
A) Seyba B) Küknar C) Zeytun
D) Kaktus E) Bambuk

51. Hansı məntəqələrdə rütubət əmsalı 0,5 –dən böyükdür?




A) 2,5 B) 1,7 C) 1,4
D) 3,4 E) 3,6

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

52. Təbii zonaların üfüqi istiqamətdə bir-birini əvəz etməsi necə adlanır?
A) Enlik zonallığı B) Şaquli zonallıq
C) Azonallıq D) İntrazonallıq
E) Növbəli əkin

53. Sxemə əsasən doğru ***olmayan*** fikirləri müəyyən edin.




1. Şimal yarımkürəsində yay gündönümüdür.
2. Şimal yarımkürəsi daha çox istilik alır.
3. Günəş cənub tropiki üzərində zenitdədir.
4. Cənub yarımkürəsində yay fəslidir.
5. Şimal yarımkürəsində ən uzun gündüzdür.
6. Günəş ekvator üzərində zenitdədir.

54. 5 ton Xəzər suyundan (13 ‰) alınan duzun miqdarı ilə 4 ton Qara dənizin suyundan (18 ‰ ) alınan duzun miqdarı arasındakı fərqi qramla müəyyən edin.

55. Hansı şərait bataqlıqların yaranmasına səbəb olur?
1. Mümkün buxarlanmanın yağıntıdan çox olması
2. Yağıntıların miqdarının buxarlanma qabiliyyətindən çox olması
3. Yeraltı suların çox dərində yerləşməsi
4. Meyilliyin və süxurların sukeçirmə qabiliyyətinin yüksək olması
5. Relyefin düzənlik olması

56. Kür çayı üzərində yaradılan su anbarları:
1. Mil-Muğan 2. Şəmkir 3. Yenikənd
4. Varvara 5. Sərsəng 6. Bəhrəmtəpə

57. Uyğunluğu müəyyən edin.

| ***Materik*** | ***Çay*** |
|---|---|
| 1. Avrasiya | a. Mekonq |
| 2. Afrika | b. Parana |
| 3. Şimali Amerika | c. Kolorado |
| | d. Konqo |
| | e. Murrey |

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

***Situasiya***

***Sizə təqdim olunmuş diaqramlı situasiyanın göstəricilərindən istifadə edərək 58- 60 –cı sualları cavablandırın. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.***




58. İqlim diaqramının aid olduğu iqlim qurşağını, qurşaqda hakim olan hava kütlələrini və hansı yarımkürə üçün səciyyəvi olduğunu müəyyən edib cədvəldə qeyd edin.

| *İqlim qurşağı* | *Hakim olan hava kütləsi* | *Yarımkürə* |
|---|---|---|
| | Yayda-<br><br>Qışda- | |

59. İqlim diaqramının aid olduğu məntəqəni müəyyən edin.




60. Diaqramın səciyyəvi olduğu qurşaqda yaranan təbii zonaları, torpaq tiplərini cədvəldə qeyd edin.

| *Təbii zonalar* | *Torpaq tipləri* |
|---|---|
| | |

## Tarix

61. Neolit dövrünə aid xüsusiyyətlərdən ***deyil:***
1. Əhali oturaq həyata keçmişdi
2. Dulusçular saxsı qablar hazırlayırdılar
3. E.ə VIII minilliyin sonlarında VI minilliyin ortalarına qədər davam etmişdir.
4. Qarabağın dağlıq hissəsində zəngin mis yataqları aşkarlanmışdı
5. Yaylaq maldarlığı meydana gəldi
6. Qadının mövqeyi zəiflədi və kişilərin nüfuzu yüksəldi

A) 1,2,6 B) 4,5,6 C) 2,3,4
D) 3,4,5 E) 2,5,6

62. Çində Taypinlər üsyanının baş verdiyi dövrə uyğun gəlir:
A) Nankin müqaviləsinin imzalanması
B) Sun Yatsenin "Birləşmiş ittifaq adlı təşkilat yaratması
C) Yaponiyada Mutsuxitonun taxta çıxması
D) İkinci Tiryək müharibəsinin başlanması
E) Hindistan Milli Konqresinin yaradılması

63. Hadisə - nəticə əlaqələrinin ***doğru*** göstərildiyi cavabı müəyyən edin:

| № | Hadisələr | Nəticələr |
|---|---|---|
| 1 | Akkad dövlətinin süquta uğraması | İkiçayarasının Kutilərin hakimiyyəti altına düşməsi |
| 2 | E.ə I minilliyin əvvəllərində Assuriyanın Urmiya bölgəsinə hücumları | Manna dövləti tərəfindən məğlub edilməsi |
| 3 | Kuti və Lullubi dövlət qurumlarının ləğv edilməsi | İkiçayarasının Akkad hökmdarı tərəfindən birləşdirilməsi |
| 4 | Mannanın Şuandahul və Durdukka şəhərlərində üsyan baş verməsi | Üsyançı şəhərlərin II Sarqon tərəfindən darmadağın edilməsi |
| 5 | Türk tayfalarının Qara dəniz sahillərindən Ön Asiyaya gəlmələri | Manna dövlətinin güclənməsi |

A) 1,4,5 B) 1,2,3 C) 2,3
D) 2,4,5 E) 1,3

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

64. Arslanşahın taxta çıxarılması nəticəsində:
A) Arran iqta kimi Eldənizə bağışlandı
B) Şəmsəddin Eldəniz İraq sultanlığı taxtının əsl sahibi oldu
C) Atabəylər dövlətinin əsası qoyuldu
D) Azərbaycanın idarəsi Qızıl Arslana tapşırıldı
E) Eldənizlər dövlətinin tənəzzülü başladı

65. Verilən xüsusiyyətlərin aid olduğu feodal dövlətlərini müəyyənləşdirin:




a) Şərqi Gürcüstanı və Şirvanşahlar dövlətini asılı hala saldı
b) Tiflis əmiri və Rəvvadi hökmdarı ilə dostluq münasibətləri yaradıldı
c) 910-cu ildə Slavyan dəstələrini darmadağın etdi.

A) 1-c; 2-b; 3-a B) 1-a; 2-b; 3-c
C) 1-b; 2-a; 3-c D) 1-a; 2-c; 3-b
E) 1-c; 2-a; 3-b

66. Uyğunluğu müəyyən edin:
1. Satuk Buğra xan
2. Sultan Mahmud
3. Alptəkin

a. Abbasi xəlifəsi tərəfindən sultan tituluna layiq görüldü
b. 942-ci ildə xaqan titulunu qəbul etdi
c. Əfqanıstanın cənubunda yeni dövlətin əsasını qoydu
d. Dəndənəkan döyüşündə məğlub oldu

A) 1-b; 2-a,d; 3-c B) 1-b; 2-a; 3-c
C) 1-c; 2-b; 3-a D) 1-b; 2-d; 3-c
E) 1-b,c; 2-d; 3-a

67. Cavanşirin hökmdar hakimiyyəti dövrünə uyğun gəlir:
A) Albaniyanın daxili müstəqilliyinə son qoyulması
B) Hilat şəhəri ətrafında xəzər hücumunun dayandırılması
C) Bizans imperatoru II Konstantin ilə görüşməsi
D) Sasani şahı III Yezdigərd tərəfindən mükafatlandırılması
E) Ktesifonun müdafiəsində iştirak etməsi

68. *Ölkə özünün ən güclü dövrünü yaşamağa başlayır. Fələstin və Suriya işğal edilir. Dövlətin şimal sərhədləri ilk dəfə Fərat çayına çatır və cənubda isə Nubiya tabe edilir.*
Mətndə bəhs olunan fəaliyyətlərin aid olduğu hökmdardan fərqli olaraq II Ramzes:
1. Hakimiyyət uğrunda mübarizə aparması dövləti zəiflətdi
2. E.ə II minillikdə Misiri idarə etmişdir
3. Vahid Misir dövlətini yaratdı
4. E.ə XIII əsrin əvvəllərində het tayfaları ilə sülh bağladı
A) 1,2 B) 2,3 C) yalnız 4
D) 3,4 E) yalnız 2

69. Ədirnə müqaviləsinə əsasən Osmanlı dövlətinin razılaşdığı şərtlərə ***aid deyil:***
A) Yunanıstanın müstəqilliyini qəbul etdi
B) Rusiyanın Cənubi Qafqazdakı işğallarını tanıdı
C) Təzminat ödəməli idi
D) Moldova, Valaxiya və Serbiyaya müxtariyyət hüququ verdi
E) Kipr adası İngiltərəyə verilməli idi

70. Qaraqoyunlu Qara Yusif və Ağqoyunlu Uzun Həsənin fəaliyyətlərinə aid ***ümumi*** cəhətdir:
A) Mərkəzləşmiş dövlətin qurulması
B) II Bəyazidlə dostluq münasibətlərinin yaradılması
C) Teymuri qüvvələrinin məğlub edilməsi
D) Osmanlı hökmdarı II Mahmud ilə mübarizə
E) I İbrahimin asılı hala salınması

71. Uyğunluğu müəyyən edin:

Səfəvi dövləti

| **1.** Şah II Abbas | **2.** Şah I Abbas |
|---|---|
| a. Rəiyyət və sənətkarların dövlət xəzinəsinə olan vergi borclarının ləğv edilməsi<br><br>b. Tamğa vergisinin ləğv olunması fərmanı<br><br>c. İngiltərə ilə «Əbədi dosluq» haqqında müqavilə bağlanması | a. Osmanlı ilə Qəsri – Şirində sülh bağlanması<br><br>b. Ordubad şəhərində örtülü bazarın inşa edilməsi<br><br>c. Avropadan mətbəə avadanlığının gətirilməsi təşəbbüsü |

A) 1-b,c; 2-a B) 1-a; 2-b
C) 1-c; 2-b,c D) 1-b; 2-a
E) 1-c; 2-a,c

72. Böyük Hun hökmdarı Mete tanhunun fəaliyyətinə aiddir:
A) Böyük Çin səddinin tikintisinə başlandı
B) Ölkə ərazisi 36 vilayətə bölündü və hər birinə məmur təyin edildi
C) Hun dövləti imperiyaya çevrildi
D) Pinçen döyüşündə məğlub oldu
E) Çin dövlətinin himayəsini qəbul etdi

73. Eyler – Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin:




a. İrəvan və Naxçıvan xanlıqları Fətəli şahın hakimiyyəti altında qaldı
b. Yalnız Rusiya Xəzər dənizində donanma saxlamaq hüququna malik idi
c. Rusiya ilə Osmanlı arasında imzalandı
d. Şah dövləti Rusiyaya hərbi təzminat ödəməli idi
e. Müqaviləni imzalayanlar öz arzusu ilə Rusiya himayəsinə qəbul oluna bilərdi
A) 1-a; 2-c; 3-b,d B) 1-c; 2-b; 3-a,d
C) 1-b; 2-a; 3-d D) 1-d; 2-c,b; 3-a
E) 1-a; 2-d; 3-b

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

74. Xəritədə ulduz ilə işarələnmiş xanlıqlar üçün ortaq cəhəti müəyyən edin:



A) Rusiya ilə Georgiyevsk müqaviləsinin imzalanması
B) Quba xanlığına tabe edildilər
C) 1819-cu ildə ləğv edildi
D) II Rusiya – İran müharibəsi dövründə Rusiya tərəfindən işğal edildi
E) Bir müddət xanlıq Qacar sülaləsi tərəfindən idarə edilmişdi

75. Uyğunluğu müəyyən edin:




A) 1,4,6 B) 3,4,6 C) 1,2,5
D) 3,4,5 E) 2,4,6

76. Rəşt və Gəncə müqavilələri üçün oxşar cəhətləri müəyyən edin:
1. Rusiya ilə Səfəvi dövləti arasında imzalandı
2. Rus tacirlərinə Səfəvi dövləti ərazisində ticarət imtiyazları verildi
3. Müqavilə Səfəvi dövləti adından Nadir şah tərəfindən imzalandı
4. Rus qoşunları Xəzərsahili vilayətlərdən tamamilə çıxarıldı
A) 2,3 B) 1,4 C) 2,4
D) 1,2 E) 3,4

77. I Mətndə bəhs edilən türk dövləti ilə II Mətndə bəhs edilən dövlət üçün ümumi cəhətdir:
**Mətn-I**
*Altay dağlarının ətəklərində məskunlaşan Aşina nəsli Avar dövlətinə tabe olub, dəmirçilik ilə məşğul idi.*
*Avarlara qarşı üsyan qaldıraraq dövlət quruldu.*
**Mətn-II**
*Qobi çölündən Xəzər dənizi sahillərinə qədər uzanan geniş ərazidə dövlət qurulmuşdu. Şimal qonşuları Göytürklər idi. VI əsrin əvvəllərində güclənərək ərazisi Hindistanın şimalından Aral gölünə, Tibet dağlarından Xəzər dənizi sahillərinə qədər uzanırdı.*
1. Sasanilərin məğlub edilməsi
2. Göytürk xaqanlığı ilə mübarizə
3. Ərəb dövlətinə məğlub olmaları
4. VII əsrdə süquta uğramaları
A) Yalnız 1 B) 1,2 C) 3,4
D) Yalnız 2 E) 1,3

78. Şamaxı xanlığının XVIII əsrin 60-cı illəri və Gəncə xanlığının XVIII əsrin 80-ci illəri tarixinə aid oxşarlığı müəyyən edin:
A) İkihakimiyyətliliyin sona çatması
B) Fətəli xan tərəfindən tabe edilmələri
C) Qarabağ xanlığından asılı vəziyyətə düşmələri
D) Xanlığın yaranması
E) Qacarlardan asılı vəziyyətə düşmələri

79. Xaç yürüşləri ərəfəsində Papanın xristian dünyasını səfərbər etmək üçün istifadə etdiyi ən mühüm bəhanələrdən biri idi:
A) Bizans imperiyasının Peçeneq hücumlarına qarşı mübarizə üçün Roma papasından yardım tələbi
B) Təbəriyyə gölü yaxınlığında Səlahəddin Əyyubinin qalib gəlməsi
C) Konstantinopolda Latın imperiyasının yaradılması
D) Xristian kilsəsinin katolik və pravoslav məzhəblərinə parçalanması
E) Səlcuq dövlətinin meydana gəlməsi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

80. Xanlıqlar dövrü üçün xarakterik ***deyil:***
A) Elbəyilər feodal qrupuna daxil idi
B) Tiyul geniş yayılmış şərti torpaq mülkiyyəti forması idi
C) Elatlar oturaq əhalidən fərqli olaraq daha az vergi verirdi
D) Şəhər idarəsində darğa polis vəzifəsini icra edirdi
E) Çöpbaşı rəiyyətdən toplanan əsas məhsul vergisi idi

81. Osmanlıda Köprülü Mehmet paşanın fəaliyyəti dövrünə ***aid deyil:***
A) İslam alimləri arasındakı mübahisələrə son qoydu
B) XVII yüzilliyin II yarısında islahat keçirdi
C) Orduda ciddi nizam-intizam yardıldı
D) Anadoludakı üsyanlar yatırıldı
E) Xəzinəyə qənaət etmək üçün bəzi yeniçəri birlikləri ləğv olundu

82. XX yüzilliyin əvvəllərində İngiltərəni Fransa və Rusiya ilə yaxınlaşdıran səbəb idi:
A) "Kontinental blokada haqqında" dekret imzalanması
B) Osmanlıya qarşı Müqəddəs ittifaqın yaradılması
C) I Napoleonun Berlinə daxil olması
D) Almaniya ilə münasibətlərin kəskinləşməsi
E) Borodino döyüşündə fransız ordusunun qalib gəlməsi

**Açıq tipli test tapşırıqları:**

83. Ağa Məhəmməd xan Qacarın fəaliyyətinə aiddir:
1. Şuşa qalasının mühasirəyə alınması
2. Gürcüstanın tutulması
3. Xorasanın bütünlüklə Qacarlar dövlətinə birləşdirilməsi
4. Cənubi Qafqaza 1797-ci il yürüşünün həyata keçirilməsi

84. XIX əsrə aid olan hadisələrin xronoloji ardıcıllığı müəyyən edin:
1. Kürəkçayda İbrahimxəlil xanın Sisianov ilə müqavilə bağlaması
2. Quruqobu döyüşündə rusların qələbəsi
3. Bakı və Quba xanlıqlarının Rusiya tərəfindən işğalı
4. Gilgilçay döyüşündə Şeyxəli xanın rusları məğlub etməsi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

85. Hökmdarların fəaliyyətinə aid doğru sıraları müəyyən edin:

| № | Hökmdarlar | Fəaliyyəti |
|---|---|---|
| 1 | Batı xan | Cənubi Çini işğal edərək özünü imperator elan etdi |
| 2 | IV İvan | 1547-ci ildə çar titulu qəbul etdi |
| 3 | Əhməd xan | Qızıl Ordu dövlətinin itirilmiş qüdrətini bərpa edə bilmədi |
| 4 | Çingiz xan | Qaraqorumda keçirilən qurultayda Avropanın cənub-şərq hissəsinə yürüşlər təşkil etmək haqqında qərar qəbul etdi |

86. Xəritədə ulduz ilə işarələnmiş ərazidə yaranan dövlətin tarixinə aid xüsusiyyətləri müəyyən edin:



1. Sasani dövlətilə aramsız müharibəyə 532-ci ildə son qoyuldu
2. Əhalinin çox hissəsini yunanlar təşkil edirdi
3. Roma imperiyasından sonra ilk dəfə Qərbi Avropanı birləşdirdi
4. İtaliyanın şimalını ələ keçirmişdi

87. Uyğunluğu müəyyən edin:
1. Portuqaliya
2. İngiltərə
3. ABŞ
a. 1588-ci ildə donanması məğlub edildi
b. Saratoqa döyüşündə qalib gəldi
c. Avropada siyasi sərhədlərini müəyyənləşdirən ilk milli dövlət hesab edilir
d. Yorktaun döyüşündə məğlub edildi
e. Yediillik müharibədə qalib gəldi

t.me/BilikTeam1

**Sizə təqdim olunmuş mənbə əsasında tapşırıqları tarixi biliklərinizə əsasən *Cavab vərəqində* cavablandırın.**

Əsası Cavanşirlər tayfası tərəfindən qoyulan xanlıq İran hökmranlığı ilə mübarizədə yaranmış və möhkəmlənmişdir. Xan gəncliyində qardaşı Behbudəli bəylə Nadir şahın yanında qulluq edirdi. Lakin 1738-ci ildə qardaşı edam edildikdən sonra doğma yurduna qayıtmadı. Nadir şah tərəfindən təqib edildiyinə görə bir müddət Zəngəzur yaylağında, Qara Murtuza bəyin yanında oldu, sonra isə öz tərəfdarlarını toplayaraq, inzibati mərkəzlərə - Gəncəyə, Naxçıvana, Şəkiyə və digər yerlərə yürüşə başladı. İran və ona düşmən olan yerli feodalların hücumlarından qorunmaq üçün gənc xana etibarlı qala lazım idi. Kəbirli mahalında ilk iqamətgah qalasını tikdirdi.Xanlığın qüdrətinin artması tezliklə bəzi feodal məliklərini narahat etdi. Onlar xana qarşı birgə çıxış etmək haqqında razılığa gəldilər. Məliklər Şəki xanı Hacı Çələbiyə məlumat verərək bildirdilər ki, "... xan burada taxta çıxmış, qala və səngər tikdirmişdir. Əgər dəfində bir qədər təxir edilsə, sonra onun qarşısında durmaq mümkün olmayacaqdır".

88. Tarixi biliklərinizə mənbədə bəhs edilən xanlığı (1) və əsasını qoyan şəxsi (2) müəyyən edin:

89. Mətndə bəhs edilən Hacı Çələbiyə müraciətin nəticələrini tarixi biliklərinizə əsasən müəyyən edin: (azı iki nəticə)

90. Mətndə bəhs edilən xanın Kərim xan Zəndin ittifaq təklifini qəbul etməsinin səbəbini tarixi biliklərinizə əsasən müəyyən edin:

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

InfoBilikTeam1

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1